# Peşə təhsili pilləsində əməkdaşlığın mühüm prinsipləri

**Təranə Zakir qızı Piriyeva**
*Bakı Qızlar Universitetinin baş müəllimi,*
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** piriyeva.tarana.zakir@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. P.B. Əliyev,
p.ü.f.d., prof. A.N. Abbasov

**Açar sözlər:** əməkdaşlıq, davranış qaydaları, prinsiplər, başlıca müddəalar, peşə təhsili müəssisələrinin idarə olunması, maraq və risklər, inkişafın monitorinqi, səmərəli planlaşdırma, idarəetmədə şəffaflıq, rəqabətlilik, effektiv nəticə

**Ключевые слова:** партнерство, правила поведения, принципы, ключевые положения, управление учреждениями профессионального образования, интересы и риски, мониторинг развития, эффективное планирование, прозрачность в управлении, конкурентоспособность, эффективные результаты

**Key word:** partnership, rules of conduct, principles, key provisions, management of vocational education institutions, interests and risks, development monitoring, effective conditions, management transparency, competitiveness, effective results

Dünyəvi və fasiləsiz xarakter daşıyan Azərbaycan Respublikasının təhsil sisteminin mühüm bir pilləsini təşkil edən peşə təhsili təhsilalanları səriştələrə malik kadr halına gətirməyə çalışır. Buna görə peşə təhsilinin əmək bazarının ehtiyaclarına uyğun olması işi məhz işəgötürənlərlə əməkdaşlıq sayəsində mümkün ola bilər. Əməkdaşlıq termini fəaliyyətin dəstəklənməsi üçün müxtəlif sahələrdə getdikcə daha geniş istifadə edilir. Peşə təhsili pilləsində əməkdaşlıq işinin prinsipləri bu konsepsiyanın necə tətbiq olunacağını başa düşməyə imkan verir. Peşə təhsili pilləsində əməkdaşlıq işini sistematik şəkildə tənzimləmək üçün vahid prinsiplərə əsaslanmaq lazımdır.

Azərbaycan dilinin izahlı lüğətində prinsip (lat. *prinsipium* - əsas ideya, başlıca müddəa deməkdir) hər hansı bir nəzəriyyənin, təlimin, əqidənin, dünyagörüşünün əsas müddəası, çıxış nöqtəsi kimi qeyd edilmiş, hər hansı bir işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli şərt kimi şərh edilmişdir (1, s. 621).

Bəzən qayda və prinsip anlayışları eyniləşdirilir, lakin qaydalar prinsiplərdən törəyir və qaydalar prinsiplərin praktik təcrübəsini ümumiləşdirir, prinsiplərin tələblərinin daha dəqiq və tam yerinə yetirilməsinə xidmət edir. Prinsip fəaliyyət normalarını və davranış qaydalarını müəyyən edir ki, prinsiplərə əməl edilməsi əməkdaşlıq işində səmərəli effektiv nəticələrə gətirib çıxara bilər.

İdarəetmə konsepsiyasını inkişaf etdirən fransız idarəetmə nəzəriyyəçisi Hanri Fayol 1917-ci ildə nəşr etdirdiyi "Ümumi və sənaye idarəetməsi" adlı kitabında səmərəli idarəetmənin əmək bölgüsü, səlahiyyət və məsuliyyət (cavabdehlik), intizam, vahid rəhbərlik, vahid istiqamət, şəxsi marağın ümumi marağa tabe olması, mükafatlandırma, mərkəzləşdirmə, pilləvari (skalyar) zəncir, rejim, ədalət, iş yerinin sabitliyi, təşəbbüskarlıq, birlik (kooperativ ruh, ittifaq) kimi prinsipini irəli sürmüşdür (2, p. 19). İdarəetmənin prinsiplərində say məhdudiyyəti yoxdur, onların sayını artırmaq da mümkündür, lakin, bu prinsiplər əməkdaşlığa əsas-

lanan idarəetmə zamanı tam olaraq səmərəli deyildir.

Əməkdaşlıq zamanı praktikada mühüm prinsiplərə əməl edilməməsi prosesin effektiv olmamasına gətirib çıxara bilər. Prinsiplərə əməl olunması əməkdaşlığın düzgün tənzimlənməsinə xidmət edəcəkdir. Peşə təhsili sahəsində idarəetmədə məsuliyyətləri bölüşdürməyə əsaslanan əməkdaşlıq işinin aşağıdakı prinsipləri təklif edilir:

— əməkdaşların bərabərliyi (tərəflərin hər biri danışıqlara başlaya bilər);

— əməkdaşların maraqlarına hörmət edilməsi və nəzərə alınması (tərəflərin maraqları danışıqlar zamanı razılaşdırılır);

— əməkdaşların müqavilə münasibətlərində iştirak etmək marağı (qanunverici müqavilə münasibətləri çərçivəsində tərəflərin mülahizəsinə daha çox sual verir);

— demokratik əsasda əməkdaşlığın gücləndirilməsində və inkişaf etdirilməsində dövlətin yardımı (sosial və əmək münasibətlərinin tənzimlənməsinə kömək etmək üçün xüsusi orqanlar yaradılır);

— əməkdaşların və onların nümayəndələrinin əmək qanunvericiliyinə və əmək hüququ normalarını ehtiva edən digər normativ hüquqi aktlara riayət etməsi (müqavilə və ya müqavilə imzalayan tərəflərin hər biri şərtlərə riayət etməyə borcludur);

— əməkdaşların nümayəndələrinin səlahiyyətləri;

— iş sahəsi ilə bağlı məsələlərin müzakirəsi zamanı seçim azadlığı;

— məcburiyyət və təhdid olmadan əməkdaşların öhdəlikləri könüllü qəbul etməsi;

— əməkdaşların üzərinə götürdükləri öhdəliklərin reallığı (onların qəbul etdikləri öhdəliklər mümkün olmalıdır);

— müqavilələrə və kollektiv müqavilələrə riayət etmək öhdəliyi;

— qəbul edilmiş kollektiv müqavilələrin, sazişlərin yerinə yetirilməsinə nəzarət (nəzarət orqanları tərəfindən həyata keçirilir);

— kollektiv müqavilələrin, sazişlərin yerinə yetirilməməsinə görə əməkdaşların, onların nümayəndələrinin məsuliyyəti (inzibati məsuliyyət müəyyən edilir);

— tolerantlıq, kompromis, konsensus;

— sosial dialoq, razılaşma və müqavilələrin məzmununu təşkil edən məsələlərin müzakirəsi zamanı seçim azadlığı, onların həyata keçirilməsi öhdəliyi (3, p. 47).

Əməkdaşlıq, layiqli həyat naminə fərdiyyətçilik və kollektivizm, bazar təşəbbüsü və demokratiya, siyasi idarəçilik və özünüidarəetmə potensialını birləşdirməyə imkan verir. Əməkdaşlığın əsas prinsipləri bir neçə blokda qruplaşdırıla bilər (bax: şəkil 1.1).




**Şəkil 1. Partnyorluğun əsas prinsipləri**

Yuxarıda sadalanan prinsipləri xidmət etdikləri ümumi məqsədlərə əsasən müəyyən istiqamətlərdə qruplaşdırmaq mümkündür. Əməkdaşların bərabərliyi və əməkdaşların maraqlarına hörmət edilməsi və nəzərə alınması, sosial dialoq, razılaşma və müqavilələrin məzmununu təşkil edən məsələlərin müzakirəsi zamanı seçim azadlığı, əməkdaşların nümayəndələrinin səlahiyyətləri prinsiplərini konkret olaraq **bərabərhüquqluluq**, əməkdaşların müqavilə münasibətlərində iştirak etmək marağı, tolerantlığı, kompromisi, konsensusu **qarşılıqlı dəstək**, demokratik əsasda əməkdaşlığın gücləndirilməsində və inkişaf etdirilməsində dövlətin yardımı, əməkdaşların üzərinə götürdükləri öhdəliklərin reallığı **səmərəli planlaşdırma**, iş sahəsi ilə bağlı məsələlərin müzakirəsi zamanı seçim azadlığı, məcburiyyət və təhdid olmadan əməkdaşların öhdəlikləri könüllü qəbul etməsini **könüllülük**, əməkdaşların və onların nümayəndələrinin əmək qanunvericiliyinə və əmək hüququ normalarını ehtiva edən digər normativ hüquqi aktlara riayət etməsi və müqavilələrə, kollektiv müqavilələrə riayət etmək öhdəliyi **öhdəliklərin yerinə yetirilməsi** başlıqları altında qruplaşdırıla bilər.

Peşə təsili haqqında Azərbaycan Respublikasının 24-cü maddəsinin 3-cü bəndində peşə təhsili sahəsində işəgötürənlərlə əməkdaşlıq mexanizminin qurulması və işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyasının təmin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi stimullaşdırıcı tədbirlər həyata keçirildiyi qeyd edilmişdir (4). Bu sahədə dövlətin stimullaşdırıcı tədbirləri əməkdaşlığın gücləndirilməsində və inkişaf etdirilməsində dövlətin yardımı prinsipinə əsaslanır.

Peşə təhsili sahəsində sadalanan nəzəri prinsiplər əməkdaşlıq sahəsində stimullaşdırıcı tədbirlərin tətbiqi sahəsində mövcud boşluqları görməyə imkan verir. Bu gün cəmiyyətdə, siyasətdə, iqtisadiyyatda, həyatımızın bütün sahələrində kompleks dəyişikliklər baş verir. Bu səbəbdən təhsilin vacib bir pilləsi, eyni zamanda əmək bazarının peşəkar kadrlarla təmin olunmasında əhəmiyyətli rol oynayan peşə təhsili sahəsində yeni əməkdaşlığa əsaslanan idarəetmə işinin təşkilinin təmin edilməsi çox uğurlu nəticələrə gətirib çıxaracağına şübhə doğurmur.

**Məqalənin aktuallığı.** Məqalədə təhsilalanları səriştələrə malik kadr halına gətirməyə çalışan peşə təhsili müəssisələrində əməkdaşlığa əsaslanan idarəetmənin zəruriliyi nəzərə alınaraq bu prosesin təşkili zamanı əməl edilməli mühüm prinsiplərin izahı və təsnifatı müəyyən edilir. Çox zəruri problemə həsr edilmiş bu məqalə bu səbəbdən aktual hesab edilir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik olaraq peşə təhsili sahəsində əməkdaşlıq işinin mühüm prinsiplərinin təsnifatı və bu sahədə əməl edilməli tövsiyələr verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən peşə təhsilini idarəetmə orqanı və peşə təhsili müəssisələri əməkdaşlıq zamanı istifadə edə bilər.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. III c. Bakı: Şərq-Qərb, 2006, 672 s.

2. Henry Fayol "General and İndustrial management" London: Featman Press, 148 page.

3. T.Z. Piriyeva. The concept of partnership work in vocational education institutions. South Ukrainian National Pedagogical University named after K. D. Ushynsky indexed in ERICHPLUS database. №4 (137) 2021 p. 45-51.

4. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu. 24.04.2018 http://www.e-qanun.az/framework/39275

**Т.З. Пириева**

## Важные принципы партнерства в профессиональном образовании

### Резюме

В данной статье рассматриваются важные принципы партнерство на уровне профессионального образования, которое является одной из основных ступеней системы образования Азербайджанской Республики.

Необходимость соблюдения важных принципов на практике основана на том, что эти принципы могут привести к эффективности процесса партнерство и служить соответствующему регулированию партнерство. Определена классификация принципов партнерство в сфере профессионального образования на основе разделения обязанностей в управлении.

**T.Z. Pirieva**

## Important principles of partnership in vocational education

### Summary

This article discusses the important principles of partnership at the level of vocational education, which is one of the main stages of the education system of the Republic of Azerbaijan. The need to observe important principles in practice is based on the fact that these principles can lead to the effectiveness of the partnership process and serve as an appropriate regulation of cooperation. The classification of principles of partnership in the field of vocational education based on the division of responsibilities in management has been defined.

**Redaksiyaya daxil olub:** 30.03.2022